Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

ÜÇ CİLDDƏ

III
CİLD

Azərbaycan Milli
Kitabxanası

BAKI – 2017



**SÜLEYMAN ƏLƏSGƏROV**

*(22.2.1924, Şuşa – 21.1.1999, Bakı). Bəstəkar, dirijor, pedaqoq.*

Süleyman Əyyub oğlu Ələsgərov 1943 – 1948-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında təhsil alıb. 1949 – 1965-ci illərdə Asəf Zeynallı adına Bakı Musiqi Məktəbinin direktoru işləyib. Azərbaycan Dövlət Radio və Televiziyası xalq çalğı alətləri orkestrinin dirijoru, Musiqili Komediya Teatrında direktor, bədii rəhbər, baş dirijor işləyib. Azərbaycan Dövlət Konservatoriyasında uzun illər pedaqoji fəaliyyət göstərib, 1971-ci ildən Azərbaycan xalq musiqisi kafedrasının müdiri işləyib, 1977-ci ildən professor idi. Musiqinin müxtəlif janrlarına müraciət edib. Üzeyir bəy Hacıbəyli adına Respublika Dövlət mükafatı laureatıdır (1967). 24 may 1960-cı ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi və 18 iyun 1974-cü ildə Xalq artisti fəxri adları ilə 1994-cü ildə "Şöhrət" ordeni ilə təltif olunub.

Bəstəkar «Bahadır və Sona» (Nəriman Nərimanovun eyniadlı pyesi əsasında Əfrasiyab Bədəlbəyliniin librettosu. 1961), «Solğun çiçəklər» (Cəfər Cabbarlının eyniadlı pyesi əsasında libretto müəllifi Rəfiq Zəka Xəndan. 1994) operalarını, «Məhəbbət gülü» (libretto müəllifi Hüseyn Muxtarov. 1945), «Ulduz» (libretto müəllifi Sabit Rəhman. 1948), Şıxəli Qurbanovun librettosu əsasında «Özümüz bilərik» (1963), «Olmadı elə, oldu belə» (1964), «Milyonçunun dilənçi oğlu» (1966), «Sevindik qız axtarır» (1970), «Hardasan, ay subaylıq?» (libretto müəllifi Salam Qədirzadə. 1968), «Həmişəxanım» (libretto müəllifi Salam Qədirzadə. 1971), İsi Məlikzadənin librettosu əsasında «Subaylarınızdan görəsiniz» (1992), «Hərənin öz ulduzu» (1997) operetta və musiqili komediyalarını bəstələyib.

Süleymən Ələsgərov Akademik Milli

Dram Teatrında Cabbar Məcnunbəyovun «İldırım», İslam Səfərlinin «Yadigar», Adil Babayevin «Dağlar qızı», Şıxəli Qurbanovun «Əcəb işə düşdük», İlyas Əfəndiyevin «Mahnı dağlarda qaldı», Gənc Tamaşaçılar Teatrında Əyyub Abbasovun «Məlik Məmməd», İsidor Štokun «Qastello», Ağəli Dadaşovun Əli Vəliyevin eyniadlı povesti əsasında səhnələşdirdiyi «Gülşən» əsərlərinin tamaşalarına musiqi yazıb. «Azərbaycanfilm» kinostudiyası onun «Ulduz» operettasını 1964-cü ildə ekranlaşdırıb.

Məzarı Bakıda Fəxri xiyabandadır.